# “Möcüzəli su” (“Magic water”) respublika sosial foto-kollaj müsabiqəsi

Son illər su resurslarına ehtiyacda artım müşahidə olunur. Əllərin adi yuyulması kimi sadə və vacib gigiyenik prosedurun hamıya uzun illər əlçatan olması üçün suya qənaət etməliyik. Həmçinin, çox su istifadə etməməklə, suyun təmizlənməsi və çatdırılması üçün lazım olan enerjiyə qənaət etməklə, karbon emissiyalarının azaldılmasına töhvə vermiş olarıq. Bu səbəbdən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Elm və Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi (Publik Hüquqi Şəxsi) suyun mühafizəsini təşviq etmək üçün maraqlı müsabiqə keçirir.

Müsabiqə ölkəmizdə sudan həddindən artıq istifadə ilə mübarizə, su resurslarından səmərəli idarə olunması baxımından suyun minlərlə insanın həyatındakı əhəmiyyəti haqqında reallıqları bölüşmək imkanı yaradır. Müsabiqənin foto-kollaj formatında keçirilməsinin məqsədi ondan ibarətdir ki, fotoşəkillər bizi qətiyyətli və məsuliyyətli olmağa ruhlandıran anları əks etdirir ki, bütün ailələr təhlükəsiz su resurslarına çıxışı rahat şəkildə əldə edə bilsinlər. Müsabiqə həmçinin suyun insanlara təsiri, əhəmiyyəti, sudan dayanıqlı istifadədə rolumuz haqqında məlumatı olmayan Azərbaycanın regionlarında, xüsusilə su hövzələrinin ətrafında yaşayan uşaqlar/yeniyetmələr/gənclər/vətəndaşlar üçün maariflındirilmənin artırılmasına kömək edəcək.

6-17 yaş arası məktəblilər suyun uşaqlar və cəmiyyət üçün nə demək olduğunu və hər damcı suyun vacibliyini, su hövzələrinin plastik və digər zərərli tullantılarla çirklənməsinin canlılar üçün yaradacağı təhlükəni və bunun qarşını almaq yollarını göstərən bir foto-kollaj çəkməlidir. Göndərilən fotoşəkillər iki şəkildən ibarət kollaj formatında olmalı, müəllifin “obyektivindən” iki vəziyyət əks etdirilməlidir: canlı su və cansız (çirklənmiş) su.

Təbiət və suya qayğı göstərən və bu çağırışda iştirak etmək istəyən, yaşadıqları yerdə su qıtlığının təsirləri ilə üzləşən, sudan qənaətcil istifadə dəyərlərini təbliğ etmək istəyən bütün uşaq və gənclər müsabiqəyə dəvət olunur.

- ***Kimlər iştirak edə bilər:***

Müsabiqə Respublikada yaşayan bütün ibtidai və orta məktəb şagirdləri üçün açıqdır. (6-11, 12-17 yaş qrupları)

- ***Necə qoşulmaq olar:***

İştirakçılar müsabiqəbinin posterində əks olunan formatda foto-kollajı (özləri və ya başqaları ilə) şəxsi Instagram, Facebook hesabında *@ecogovaz* *@rugim_center* etiketi ilə və #etsn *#rugim_az* #suheyatdir #magicwater *#mənsuyaqənaətedirəm*

*(#mensuyaqenaetedirem) #Azərbaycanınsuresursları* həştəglərindən istifadə edib paylaşaraq müsabiqədə iştirak edə bilərsiniz. Paylaşan tərəfin Instagram hesabı "açıq (public)" olmalıdır ***(hesab bağlı olduğu təqdirdə paylaşımın ekran şəklini RUGİM-in sosial şəbəkə hesablarına göndərməlisiniz)***. Paylaşımda suyun mühafizəsi ilə bağlı qısa hekayəni qeyd edə bilərsiniz. Foto-kollajları ***1-30 oktyabr tarixləri arasında*** paylaşmalısınız.

· ***Qiymətləndirmə necə aparılacaq:***

Fotolar aşağıdakı meyarlar üzrə qiymətləndiriləcək:

- suyun mühafizəsinin nə dərəcədə keyfiyyətli şəkildə aparılması;
- fotoşəkil başqalarını suya qənaət etməyə nə qədər yaxşı inandırır;
- kompozisiyanın keyfiyyəti və şəklin görünüşü.

· ***Qaliblərlə necə əlaqə saxlanılacaq:***

Hər bir qalib şəklin paylaşıldığı sosial şəbəkə hesabına birbaşa mesaj cavab göndərməklə xəbərdar ediləcək. Daha sonra mükafatı almaq üçün adlarını və ünvanlarını göndərə bilərlər.

# Şərtlər və Qaydalar

## Giriş

1. Bu Müsabiqədə iştirak etməklə siz bu şərtləri oxuduğunuzu, başa düşdüyünüzü və razılaşdığınızı təsdiq edirsiniz.

2. Müsabiqə Respublikada yaşayan bütün ibtidai və orta məktəb şagirdləri üçün açıqdır.

İştirakçılar müsabiqəbinin posterində əks olunan formatda foto-kollajını (özləri və ya başqaları ilə) şəxsi İnstaqram, Facebook hesabınızda @ecogovaz @rugim_center etiketi ilə və #etsn *#rugim_az* #suheyatdir #magicwater *#mənsuyaqənaətedirəm (#mensuyaqenaetedirem) #Azərbaycanınsuresursları* həştəglərindən istifadə edərək paylaşırsınız. Suyun mühafizəsi ilə bağlı qısa hekayəni də qeyd etməlisiniz (nümunə: Fərid, 6 yaş – qısa hekayə). Fotoşəkilləri ***1-30 oktyabr tarixləri arasında*** yerləşdirməlisiniz.

3. Siz fotoşəkildə göstərilən uşağın/uşaqların valideyni və ya qanuni qəyyumu olmalısınız.

4. Bütün fotolar *oktyabr ayının 30-na qədər* qəbul edilməlidir və bu tarixdən sonra göndərilən hər hansı fotoşəkil nəzərə alınmayacaq.

5. Bir iştirakçı müsabiqə üçün yalnız bir fotoşəkil göndərə bilər.

6. İştirakçılar sosial şəbəkələr tərəfindən müəyyən edilmiş istifadə şərtlərinə əməl etməlidirlər.

## Fotomüsabiqəyə Giriş Tələbləri

7. Təqdim edilən foto-kollajın nəzərə alınması üçün aşağıdakı şərtlər tətbiq olunur:

a) Fotoşəkil valideyn tərəfindən paylaşıldığı zaman, siz fotoşəkildə göstərilən uşağın/uşaqların valideyni və ya qanuni qəyyumları olmalısınız;

b) Qeydiyyat zamanı ən azı bir uşaq **6-17 yaş arasında** (iki yaş qrupu olmaqla – ***6-11***, ***12-17***) olmalıdır;

c) Fotoşəkildə birdən çox adam görünə bilər;

d) Fotoşəkil qeydiyyat tarixindən əvvəlki son 1 ay ərzində çəkilmiş olmalıdır;

e) İştirakçılar təqdim etdikləri fotoşəkilin öz işi olduğuna zəmanət verməlidirlər.

8. Müsabiqəyə daxil olmaqla, hər bir iştirakçı razılaşır ki, təqdim olunan hər hansı fotoşəkildə (şəkillərdə) görünən hər hansı üçüncü tərəfin icazəsi var.

9. Müsabiqədə iştirak etməklə, hər bir iştirakçı və fotoda görünən şəxs razılaşır, Təşkilatçı, göndərilən fotoşəkilləri mediada tanıtmaq üçün istifadə etmək hüququna malikdir.

10. Təşkilatçı Müsabiqəyə daxil edilmiş hər hansı bir fotoşəkilin çəkilişi və təqdim edilməsi ilə bağlı çəkilən hər hansı xərclərə görə məsuliyyət daşımır.

## Qaliblərin seçimi

11. Münsiflər heyəti tərəfindən bütün etibarlı şərtlərə cavab verən fotoşəkillər arasından hər yaş qrupundan üç (3) qalib seçiləcək. Qərar aşağıdakı meyarlara əsaslanacaq:

- suyun mühafizəsinin nə dərəcədə keyfiyyətli şəkildə aparılması;
- fotoşəkil başqalarını suya qənaət etməyə, qorumağa nə qədər yaxşı inandırır;

- kompozisiyanın keyfiyyəti və şəklin görünüşü.

12. Münsiflər heyətinin qərarı müzakirə olunmur və heç bir dəyişiklik aparılmayacaq.

13. Hər bir qalib 15 noyabr 2022-ci il tarixinə qədər istifadə etdiyi sosial şəbəkə hesabına birbaşa mesaj vasitəsilə cavabla bildirilməklə elan olunacaq. Qalibdən bu mesajlara ADI və SOYADI, hesab adı, ÜNVANI və E-poçt ünvanını göndərməklə cavab verməsi xahiş olunacaq. Qaliblər həmçinin ETSN və RUGİM-in Instagram və Facebook səhifələrində elan ediləcək.

14. İştirakçıların Instagram hesabı “açıq (public)” olmalıdır (hesab bağlı olduğu təqdirdə paylaşımın ekran şəklini göndərməlisiniz).

15. Tələb olunan 14 gün müddətində hər hansı mükafatın qalibi ilə əlaqə saxlamaq mümkün olmadıqda və ya cavab vermədikdə (yuxarıda göstərilən üsulla) həmin qalib mükafatı itirir. Bu hadisə və ya qalibin hər hansı səbəbdən diskvalifikasiyası halında, təşkilatçı mükafatı alternativ qalibə verə bilər.

## Ümumi qaydalar

16. Müsabiqə Facebook və Instagram tərəfindən maliyyələşdirilmir, təsdiq edilmir, idarə olunmur və ya onunla əlaqələndirilmir və iştirakçı etiraf edir ki, sosial şəbəkələr Müsabiqədə iştirak nəticəsində dəymiş hər hansı ziyana görə heç bir məsuliyyət daşımır.

17. Təşkilatçı özündən asılı olmayan hadisələrin və ya halların baş verməsinə görə məsuliyyət daşımadan bu Yarışmanı ləğv etmək və ya təxirə salmaq hüququnu özündə saxlayır.

18. Təşkilatçı ilə aşağıdakı e-poçt ünvanı ilə əlaqə saxlamaq olar: ***rugim@mk.edu.az***